# Qara Qarayevə həsr olunan konsert

**Fevralın 3-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycanın dahi bəstəkarı Qara Qarayevin anadan olmasının 105 illik yubileyi ilə əlaqədar konsert keçirilib.**



Konsertdə Əməkdar artist Vaxtanq İmanovun rəhbərliyi altında Qara Qarayev adına incəsənət məktəbinin kamera ansamblı çıxış edib. Dahi bəstəkarın əsərlərindən nümunələr səsləndirilib.



Qara Qarayev onu sevənlərin qəlbində hər zaman yaşayan və əvəzolunmaz dahi şəxsiyyətlərdəndir. Onun musiqisi bizim üçün bir ürək çeşməsi, qəlbimizə axan sevgi şəlaləsidir.

Qara Qarayev dünya musiqi xəzinəsinə daxil olan “Yeddi gözəl", “İldırımlı yollarla" baletlərinin, eləcə də “Don Kixot" simfonik qravürü, “Leyli və Məcnun" simfonik poeması və digər əsərlərin müəllifidir. Bəstəkar “Uzaq sahillərdə”, “Onun böyük ürəyi”, “Nizami” və s. Azərbaycan kinofilmləri üçün unudulmaz musiqi nümunələri bəstələyib.

Qeyd edək ki, fevralın 5-də Azərbaycanın dünya şöhrətli bəstəkarı və pedaqoqu SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Qara Qarayevin anadan olmasının 105 ili tamam olur.

*Fidan HÜQUQQIZI,*
*“Xalq qəzeti”*

Xalq qəzeti .- 2023.- 5 fevral .- S.11.